# Gözlerimin Üstüne

— *Doktor-Yazar İlhamə Müslümova* · 19 Kasım 2024



Bu ömür yollarında ayrı düşməyək deyə,
İzimi toxumuşdum izlərinin üstünə...
İçimdə saxlamışdım xətrinə dəyər deyə,
Başqa söz deməmişdim sözlərinin üstünə...

Kor kimi inanırdım hər sözünə kəlmənə,
Bir dəfə aldatmadım, yalan demədim sənə,
Gündə kələk gəlirdin bu sadəlövh, saf mənə..
Yüz yalanı geydirdin düzlərimin üstünə ...

Səni hamıdan fərqli, mən müqəddəs sayardım,
Haqqında kim pis desə, gözlərini oyardım ...
Yolunda düşünmədən başımı da qoyardım,
Bir kərə baş qoymadın dizlərimin üstünə...

Heç nə olmamış kimi belə baxma üzümə..
Daha yer yoxdur səbrə, can qalmayıb
dözümə...
Səndən sonra birtəhər gəlirdim mən özümə ...

Gəlişinlə od saldın közlərimin üstünə…

Bu həyat yollarında yaşamadın,  ötüşdün…
Ürəyimi vermişdim…ürəyimdən də deşdin …
Ay vicdansız , ay zalım, gözümdən niyə
düşdün?
Axı səni qoymuşdum gözlərimin üstünə…
Dr.İlhamə Müslümova